

# İlham Əliyevin iqtisadi islahatlar kursu qlobal biznes mühitinin tam dəstəyini qazanıb

## Azərbaycan Prezidenti iqtisadi inkişafın yeni prioritetlərini elan etdi

Etimad, inam, güvən kimi dəyərlər yalnız insanların qarşılıqlı münasibətini deyil, elə dövlətlər, xalqlar arasında əməkdaşlığı da müəyyənləşdirən əsas amillərdir. Bu, iqtisadi-ticari əlaqələrdə isə bütün zamanlarda ən vacib məqam olub.

Təsadüfi deyil ki, 160 il öncə məşhur fransız yazıçısı Aleksandr Düma Qafqaza səfərinin təəssüratlarını öz xalqına təqdim edərkən, azərbaycanlılar barədə düşüncələrini belə yazırdı: "Elə xalqların adamları var ki, öz əli ilə imza qoyduğu, möhür vurduğu sənəddən belə boyun qaçırır. Azərbaycanlılarda isə kişi sözü var. Onlarla bir şey barədə sövdələşəndə sənəd, imza, möhür tələb etmək lazım deyil. Azərbaycanlılar verdiyi sözdən heç vaxt dönməz".

### Ermənipərəst mövqedən Azərbaycanın strateji tərəfdaşlığınadək…

Bu gün Fransa şirkətlərinin Azərbaycana böyük marağını təmin edən faktor da yalnız ölkəmizin malik olduğu yüksək iqtisadi potensial deyil, bəlkə də ən əsası, Azərbaycanın güvənilən tərəfdaş, etibarlı iş ortağı olmasıdır. Azərbaycan Prezidentinin Fransa Sahibkarlar Təşkilatının üzvləri ilə görüşünün əsas nəticəsi də bu həqiqəti bir daha təsdiq etdi.

Azərbaycanla Fransa əlaqələrinin tarixi kökləri var. Əsrlər boyu mədəniyyətdən ədəbi yaradıcılığa qədər, siyasi-diplomatik ünsiyyətdən iqtisadi əməkdaşlığadək müəyyən münasibətlər formalaşıb. Ancaq bu sahədə xüsusi irəliləyiş ötən əsrdən başlayıb. 1920-ci ilin əvvəlində Fransa Azərbaycan Xalq Cümhuriyyətində səfirlik təsis etmişdi. Azərbaycan istiqlaliyyətini bərpa edəndən sonra müstəqilliymizi tanıyan ikinci dövlət də Fransa olub. Əlamətdar haldır ki, həm Heydər Əliyev, həm də İlham Əliyev prezident kimi ilk rəsmi dövlət səfərlərini məhz Fransaya etmişlər.

Fransa ənənəvi ermənipərəst ölkələr sırasında ilk yerlərdədir. Erməni diasporu bu ölkədə çox güclüdür və mütəşəkkildir. Dövlət, özəl strukturlarında geniş təmsil olunmaqla yanaşı, ictimai-siyasi proseslərə də ciddi nüfuz edə bilirlər. Ən böyük şəhərlərdən kiçik qəsəbələrə qədər Fransanın hər bir bucağında erməni təsiri, erməni izi mövcuddur. Bunun nəticəsidir ki, Fransa qondarma "erməni soyqırımını" tanımaqla kifayətlənməyərək, hətta bu avantüranı təkzib edən, onu tanımayan insanlara cəza tətbiq edir.

Uzun onilliklərdir erməni lobbisinin təsiri altında olan ölkə və xalqla münasibətləri yaratmaq, həm də inkişaf etdirmək Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən olub. Bu hədəfə artıq tam çatılıb. İndi erməni yalanları Fransada nə qədər çığır-bağır salsa da, Azərbaycan həqiqətləri daha gur səslənir. Fransız cəmiyyəti xalqımızı, ölkəmizi yaxından tanıyır, ən əsası, Qarabağ münaqişəsi barədə dolğun təsəvvürə malikdir. Adi bir fakt: ötən əsrin 90-cı illərinin əvvəllərində respublikamızı az qala təcavüzkar, Qarabağı isə aşkar şəkildə Ermənistan ərazisi sayan Fransanın rəsmi və siyasi dairələri artıq birmənalı şəkildə bəyan edirlər ki, Qarabağ Azərbaycanın əzəli torpağıdır və münaqişə ərazi bütövlüyünün qorunması prinsipi əsasında nizamlanmalıdır. ATƏT-in Minsk qrupunun həmsədri kimi rəsmi Paris problemin həlli ilə bağlı son dövrlərdə təşəbbüslərini daha da artırıb.

Münasibətlərdə son 23 il ərzində baş verən bu dönüş şübhəsiz, xarici siyasətimizin mühüm uğurlarındandır. Tək ötən il ərzində Fransa Prezidenti F.Olland iki dəfə Bakıda rəsmi səfərdə olub, Prezident İlham Əliyev isə Parisə səfər edib. Fransa Azərbaycanı özünün strateji tərəfdaşı kimi qəbul edir. Bir mühüm məqamı da qeyd edək ki, Azərbaycan Prezidentləri Heydər Əliyev və İlham Əliyev bu ölkənin ali mükafatı olan "Fəxri Legionun Böyük Xaç Komandoru" ordeni ilə təltif ediliblər. 2011-ci ildə isə Prezident Nikola Sarkozi ölkəmizə rəsmi səfəri çərçivəsində Mehriban Əliyevanı Fransa Respublikasının "Şərəf Legionunun Zabiti" dövlət ordeni ilə təltif edib, eyni zamanda, Azərbaycanın birinci xanımı Fransada 2014-cü ilin "Ən nüfuzlu qadını" adına layiq görülüb.

### 2017-2018-ci illər qeyri-neft sektorunun çox fəal inkişaf illəri olacaq

Ötən ay Amerika Ticarət Palatasının heyəti ilə görüşən və çox səmərəli fikir mübadiləsi aparan, əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirən Prezident İlham Əliyevin bu dəfə Avropanın ən böyük dövlətlərindən olan Fransanın Sahibkarlar Təşkilatı üzvləri ilə müzakirəsi də mühüm mövzuda idi. Azərbaycan rəhbəri dünyanın ən böyük transmilli korporasiyalarının, meqaholdinqlərinin təmsilçilərinə ölkədə aparılan iqtisadi və struktur islahatları barədə məlumat verdi, iqtisadi-ticari əməkdaşlığın yeni istiqamətlər üzrə davamlılığını vacib saydı.

Azərbaycan Prezidenti dövlətlər arasında mövcud olan fəal siyasi dialoqun, məsləhətləşmələrin dərin iqtisadi əməkdaşlıq üçün şərait yaratdığını vurğuladı. Qeyd edək ki, Fransa Qafqazda ən böyük iqtisadi-ticari əlaqələri Azərbaycanla qurub. Düzdür, vaxtilə Azərbaycanla ticarət əlaqələrində ikinci yerdə olan bu ölkə bu gün beşinci yerdə qərarlaşıb və xarici ticarət dövriyyəmizdəki payı 5,21 faiz, ixracda isə 7,56 faiz təşkil edir. Azərbaycanın üçüncü neft alıcısı olan Fransanın müəssisələri neft və neft məhsulları sənayesində daha yaxından iştirak edir, Bakı-Tbilisi-Ceyhan neft kəmərini idarə edən konsorsiuma daxildirlər. "Total" bu konsorsiumun səhmlərinin 5 faizinə, Bakı-Tbilisi- Ərzurum qaz kəmərində isə 10 faiz paya malikdir. Fransız CNİM şirkəti Bakıda zibil emalı zavodunun tikintisini və zavodun 20 il ərzində istismarını həyata keçirib. ARİANSPACE şirkəti Azərbaycanın kosmik peykinin buraxılmasını təmin edib, ikincinin üzərində işləri başa çatdırmaq üzrədir.

Prezident İlham Əliyevin fikrincə, müxtəlif sahələrdə toplanan zəngin təcrübə iqtisadiyyatın şaxələndirilməsi dövründə yeni sahələr üzrə əməkdaşlığı zəruri edir. Xarici sərmayədarların maraqları ilə ölkəmizin maraqları arasında tarazlığın tapılmasının vacibliyini söyləyən ölkə rəhbəri əslində, bu vəzifənin öhdəsindən gəlindiyini xatırlatdı. Yeni iqtisadi vəziyyət ilinin əsas mahiyyətini isə Prezident belə müəyyənləşdirdi: "2017-2018-ci illər qeyri-neft sektorunun çox fəal inkişaf illəri olacaq. Biz artıq neftdən sonrakı dövrə qədəm qoymuşuq. Demək olmaz ki, neft və qaz erası bitib. Sadəcə, biz bu faktoru kənara qoymalıyıq və öz iqtisadi strategiyamızı elə formalaşdırmalıyıq ki, sanki bizdə neft və qaz yoxdur. Gələn illər ərzində Azərbaycanda neft və qazdan asılılıq o qədər də gözəçarpan olmayacaq".

Prezident İlham Əliyev Azərbaycanı xarici investorlar üçün daha cəlbedici etmək üçün sürətləndirilən fəal və dərin iqtisadi islahatların məqsədlərini də anlatdı: ölkəmizə sərmayə qoymağı arzulayan xarici şirkətlərin qarşısında, həmçinin biznes mühitində olan maneələr nədir; gömrük qaydaları, vergilər necədir? Bununla bağlı qəbul edilən qərarların effektiv nəticələri var. Məsələn, dövlət qurumlarının özəl sektorda apardığı yoxlamaların məhdudlaşdırılması nəticəsində bu göstərici bir il ərzində 20 mindən cəmi 30-a düşüb.

Fransanın Azərbaycanla iqtisadi əməkdaşlığını genişləndirməkdə maraqlı olduğunu bildirən MEDEF-nin biznes şurasının prezidenti Mari-Anj Döbon ölkə rəhbərimizə xitabən yeni iqtisadi kursa konkret dəstəyini bildirdi: "Bu, fəaliyyətin inkişafını davam etdirmək üçün çox yaxşı başlanğıcdır. Sizin Davosdakı çıxışınız ölkəni dəyişmək və yeni islahatlara başlamaq üçün çox aydın mesaj idi".

Xatırladaq ki, ötən ay Amerika Ticarət Palatasının üzvləri Prezident İlham Əliyevlə görüşündə "İslahatların həyata keçirilməsində Sizin rəhbərliyinizi çox yüksək dəyərləndiririk. Həm yerli, həm də xarici şirkətlər Sizin yanınızdadır. Biz Sizi tam dəstəkləyirik və Sizi bu islahatlardan geri çəkilməməyin qarantı kimi görürük. Sizə dəstək olmaq bizim hamımız üçün böyük şərəfdir" - fikrini səsləndirmişlər.

Dünyanın ən böyük fövqəldövlətinin biznes mühitindən belə böyük dəstək alan Azərbaycan Prezidentinin islahat strategiyasına indi Fransanın timsalında Avropanın işgüzar dairələri tam etimadlarını bildirir, islahatların uğurla nəticələnəcəyinə əmindirlər. Göründüyü kimi, Prezident İlham Əliyevin yeni iqtisadi islahatlar kursu qlobal biznes mühitinin tam dəstəyini qazanıb

Azərbaycanı Avropaya iki əsr öncə tanıdan Aleksandr Düma onu da yazırdı ki, "Avropada fransız dili necə əhəmiyyətlidirsə, Qafqazda da Azərbaycan dili o cür əhəmiyyətlidir". Bu əhəmiyyətin göstəricisi indi dil faktoru miqyasını dəfələrlə aşaraq, geosiyasətdən qlobal iqtisadi proseslərə, qitələrarası enerji və logistik layihələrdən sivilizasiyalararası dialoqun ən mükəmməl məkanınadək genişlənir. Bu gün Fransa da, Avropa da, elə bütün dünya da anlayır ki, Qafqazın siyasi gücü, iqtisadi mərkəzi, əsas söz sahibi məhz Azərbaycandır.

Yəni, Prezident İlham Əliyevdir…

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***